*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 92-97* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.92*

# İLYAS ƏFƏNDİYEV YARADICILIĞINDA MİLLİ RUHUN ƏKSİ

**Nuranə Əsədullayeva**
Filologiya üzrə fəlsəfə doktoru
E-mail: x_nura_x@list.ru

**Annotasiya.** Ölkədə baş vermiş ictimai-siyasi proseslər kontekstində 1950-ci illərin sonu – 1960-cı illərin əvvəlləri ədəbiyyat – istər poeziya, istərsə də nəsr və dramaturgiya yeni bir mərhələyə daxil olur. Bu mərhələ təkcə hadisəyə, fakta ideoloji baxışın yenilənməsi və ya dəyişməsi ilə deyil, eləcə də qəhrəmanların davranışı, həyata münasibəti ilə fərqlənirdi. Artıq tarix kitablarında deyildiyi kimi, "sosializm tam və qəti qələbə" çalmışdı. Belə olduqda ədəbiyyat da özünün mövzu və problematikasını dəyişməli olur. Daha əvvəlki kimi, obrazları və ya qəhrəmanları sinfi mənsubiyyətinə görə seçmək və ona qiymət vermək tendensiyası arxada qalmışdı. Artıq İkinci Dünya müharibəsindən də on beş ildən artıq bir vaxt keçirdi. Dünyada gedən proseslər xalqların ədəbiyyatının və mədəniyyətinin inteqrasiyasını zəruri edirdi. Bədii əsərlərdə artıq 1920-1930-cu illərdə olduğu kimi, qatı ideoloji düşmənlər deyil, yeni və fərqli obrazlar yaranmağa başlayır, daha çox mənəvi-əxlaqi məsələlər üstünlük təşkil edirdi. Bu baxımdan görkəmli ədib, Xalq yazıçısı İlyas Əfəndiyevin yaradıcılığı mühüm əhəmiyyət kəsb edir. Məqalədə İ.Əfəndiyevin "Söyüdlü arx", "Körpüsalanlar", "Geriyə baxma, qoca", "Üçatılan" əsərləri əsasında ədəbiyyatda milli ruhun əksi məsələsi araşdırılmışdır.
**Açar sözlər:** 1950-60-cı illər, Azərbaycan ədəbiyyatı, İlyas Əfəndiyev, milli ruh, yazıçı mövqeyi

**Məqalə tarixçəsi:** göndərilib – 13.11.2023; qəbul edilib – 24.11.2023

# REFLECTION OF NATIONAL SPIRIT IN CREATIVE ACTIVITY OF ILYAS EFENDIYEV

**Nurana Asadullayeva**
Doctor of Philosphy in Philology
E-mail: x_nura_x@list.ru

**Abstract.** In the context of socio-political processes taking place in the country, literature of the late 1950s early – 1960s enters a new stage. This stage was distinguished not only by renewal amd new approach to the events and facts but also by the behavior of the heroes and their attitude to life. As it was stated in the books of history "socialism won a complete and decisive victory" in society. In such case, the literature also has to change its subject and problematics. It was not popular as before, the trend of choosing literary characters according to their class affiliation. More than fifteen years have passed since the Second World War and the events taking place in the world made it necessary the integration of literature and culture to people. New images began to appear in works of fiction, the images of ideological enemies was not so popular as in 1920-1930s, more spiritual and moral issues prevailed. In this regard, creative activity of the outstanding People's writer Ilyas Efendiyev is of great importance. It is studied in the article the problem of reflection the national spirit in literature on the basis of Efendiyev's works "Bridgemaker", "Don't look back, old man" and etc.
**Keywords:** 1950-60s, Azerbaijani literature, Ilyas Efendiyev, national spirit, writer's position

**Article history:** received – 13.11.2023; accepted − 24.11.2023

## Giriş / *Introduction*

1950-ci illərin sonu – 60-cı illərin əvvəllərində yaranan əsərlərdə 20-ci illərdə ictimai-siyasi arenada baş verən hadisələrin təsviri, qolçomaq, eser, menşevik, müsavatçı obrazlarına nadir hallarda rast gəlmək olurdu. "Xalq düşməni" yarlığı da öz əhəmiyyətini və mahiyyətini itirməkdə idi. M.Hüseynin "Qara daşlar", "Yeraltı çaylar dənizə axır", M.İbrahimovun "Böyük dayaq", Bayram Bayramovun "Arakəsmələr", İlyas Əfəndiyevin "Söyüdlü arx", "Körpüsalanlar", "Dağlar arxasında üç dost", Süleyman Vəliyevin "Düyünlər", Süleyman Rəhimovun "Ağbulaq dağlarında", Hüseyn Abbaszadənin "Ləpədöyəndə", "Qaradağ əhvalatı", Əbülhəsənin "Tamaşa qarının nəvələri", Həsən Seyidbəylinin "Telefonçu qız", "Cəbhədən cəbhəyə" və s. əsərlərdə obrazların yaradılmasında ideoloji meyillər azlıq təşkil edir, bəzi əsərlərdə isə yox dərəcəsindədir. Ən əsası isə obrazlar indi əvvəlki kimi ideoloji libasa bürünmürdü. Dövrü səciyyələndirən tənqidçi Akif Hüseynov yazır: "Burada belə bir qənaətə gəlmək mümkündür ki, epik vüsətin kiçilməsi yalnız altmışıncı illərdə fəaliyyətə başlamış ədəbi nəslin yaradıcılığı ilə bağlı hadisə deyildir, əslində həmin əsərlər bu cəhətdən gənclərin əsərlərindəki üslubi istiqamətin müəyyənləşməsi üçün zəmin olmuşdur. Ümumiyyətlə, nəsrimizin yığcam formalara doğru aşkar meylinə dair söhbətə orta nəslin fəaliyyətindən başlamaq daha doğru olardı" [4, s.5]. Tənqidçinin bu müşahidəsi onu deməyə əsas verir ki, artıq həyat dəyişdiyi kimi, ədəbiyyat da dəyişməyə məruz qalmışdı. İdeoloji düşmən obrazlarının yaradılmasından imtina da məhz bu zaman ortaya çıxmışdır. Tənqidçi Yaşar Qarayev ədəbiyyatda baş verən bu tendensiyanı zamanında görərək, 1964-cü ildə yazdığı "Mənəvi gözəllik üçün məsuliyyət hissi ilə" adlı məqaləsində müsbət qəhrəman probleminə aydınlıq gətirərək yazırdı: "Müsbət qəhrəman problemi müəyyən mənada həmişə əxlaqi problemdir. Çünki o, müasir müsbət qəhrəmanı bütün mənəvi və əxlaqi gözəlliyi ilə təsvir etməyi nəzərdə tutur. Son illərdə bu qəhrəmanın təqdim olunduğu bir sıra nəsr əsərlərində daxili, emosional və psixoloji təhlilə meylin artdığını görürük. Bu meyli həmin əsərlər üçün nə dərəcədə müsbət hesab etmək lazımdır" [6, s.153].

## Əsas hissə / *Main Part*

**İlyas Əfəndiyev yaradıcılığında dövrün gerçəkləri.** Bu mərhələdə ictimai həyatla ailə-məişət məsələləri mənəvi-əxlaqi faktorla paralel təsvir olunur. Bu cəhətdən İlyas Əfəndiyevin yaradıcılığı diqqəti cəlb edir. Məlumdur ki, İ.Əfəndiyev yaradıcılığa 1939-cu ildə dərc edilən "Kənddən məktublar" hekayələr kitabı ilə qədəm qoymuşdur. Hekayələrin mövzusunun kənd həyatından götürülməsinə baxmayaraq, burada ictimai həyatdan çox, obrazların həyatına, taleyinə yer verilirdi. Kiçik istisnalarla İ.Əfəndiyev elə ilk hekayələrindən konflikti və obrazları ideoloji mövqedən dəyərləndirmir. Yəni yazıçı cəmiyyətdə elə problemlərə toxunur ki, bu problemlər keçici olmur, bütün zamanlar üçün olur. Tənqidçi Əkbər Ağayevin yazdığı kimi: "...müəllifi məşğul edən əsas məsələ Qanbayla Zərifənin arasındakı sevgi deyil, insanların ictimai varlığının, daxili aləminin təmizlənməsi, yeni xüsusiyyət və keyfiyyət kəsb etməsi məsələsidir ki, sevgi hissinin özü də bu dəyişmə prosesinə tabedir" [1, s.430].

İ.Əfəndiyevin bir yazıçı kimi əsas xüsusiyyətlərindən biri də konflikti süni şəkildə, yəni dövrün sifarişinə uyğun olaraq qurmaq deyildi. Belə əsərlər daha çox kollektivləşmə hərəkatını təsvir edən əsərlərlə bağlı olurdu. Bu cür konfliktlərə qarşı "konfliktizlik nəzəriyyəsi"nin ortaya çıxması da bu istiqamətdə yazılan əsərlərin uzunömürlü olmadığına bir işarə idi. İ.Əfəndiyev də "Söyüdlü arx" (1958) romanında arxın çəkilməsi zamanı ortaya çıxan təbii konfliktə müraciət edir və hadisələri bu istiqamətdə inkişaf etdirir. Arxın çəkilməsi zamanı mübahisələ-

rin yaranması, fikirlərin haçalanması təbii konfliktin yaranmasına gətirib çıxarır və yazıçı məsələni şablon yolla deyil, təbii yolla həll etməyi üstün tutur. Arxın uzadılmasına sədr Nəriman ona görə razılıq vermək istəmir ki, sovet sədri işləyən Çıraq buna qarşı çıxır. Başqa bir səbəbi isə sədr Nərimanın öz kolxozunun xeyrini güdməsidir. Nəticədə Söyüdlü arxın uzadılması məsələsi ən yaxın adamları belə bir-birinə qarşı qoyur. Qərənfil ərinə “Sən el atasısan. El atası təkcə özünü güdməz” [2, s.378], – deyə arxın uzanmasını istəyir. Nəriman hər şeyi yaxşı dərk etsə də, vaxtilə Çırağın “...biz köçəri babayıq, heç dörd ay qışlaqda olmuruq, arx nəyimizə lazımdır” [2, s.376], – deyə ondan imtina etməsinə cavab olaraq iyirmi il əvvəlki bir hadisənin günahını camaatdan çıxarmağa çalışır. Lakin kollektivin yığışaraq Söyüdlü arxı uzatmaq qərarını verməsi ağsaqqal Nərimanın küsməsi ilə nəticələnir. Ancaq bir qədər sonra özü də bu hərəkətinin doğru olmadığını dərk edir. İlk vaxtlar sədr Nəriman özünü kənara çəksə də, sonralar “su aydınlıqdır”, “su xoşbəxtlikdir” fikrini əsas tutaraq daxili narahatlıq keçirir. Məsələnin müsbət həll olunması onu daxilən rahatladır. Yazıçı bunu romantik şəkildə belə təsvir edir: “Gecələr Söyüdlü arxda ulduzlar çiməcək. Ay işığında yuxulu yarpaqlar suya zərif kölgə salacaq. Quzey qışlaqda qurbağaların şən səsləri eşidiləcək. İndi ürəklərə əzab verən gizli dərdlər də o zaman xoş xatirələrə çevriləcək. Çünki su xoşbəxtlikdir, su aydınlıqdır!” [2, s.405].

Yazıçı romanda ikinci bir konflikt xətti də qurur; bu, Muradla Nuriyyənin münasibətlərində üzə çıxır. Nuriyyə Muradı orta məktəbi bitirdikdə təsadüfən leytenant paltarında görmüş və sevməyə başlamışdı. Cəmi bir neçə saat çəkən bu görüşdə Nuriyyə Muraddakı istiqanlılığa, nəcibliyə heyran olmuşdu. Əlbəttə, “ata-ana, bacı-qardaş” ünsiyyəti görməyən Nuriyyə üçün bu görüş heç zaman onun yadından çıxmamışdı. Elə Murada da Nuriyyə xoş hisslər buraxdığı üçündür ki, altı il sonra yenidən rastlaşmışdılar. Bu zaman məlum olmuşdur ki, onların bir-birinə hissləri, duyğuları hələ təzədir, necə deyərlər, zamanın sınağından keçməmişdir. Onlar nə qədər özlərini bir-birinə yaxın hesab etsələr də, əslində, xarakterlərini bilmirlər, bunun üçün vaxt və zaman lazımdır. Muradın Səadətlə evli olması, lakin bu evliliyi davam etdirmək istəməməsi konflikti mürəkkəbləşdirən faktorlardandır. Məsələ burasındadır ki, Nuriyyənin Murada sevgisi olsa da, onun üzündən ailənin dağılmasını da istəmir və özünü bu işdə günahkar hesab edəcəyindən qorxur. Muradın həyat yoldaşı və uşaqları olduğunu öyrəndikdə, öz xoşbəxtliyini başqasının bədbətxtliyi üzərində qurmaqdan vaz keçir və sevgisini cilovlayır. Ancaq xoşbəxtliyini də axtarmaqda davam edir, baxmayaraq ki, Muraddan sonra kimsəni sevə bilmədiyi ona gün kimi aydın idi. Yazıçı Nuriyyənin sevgi münasibətlərində çoxgedişli kombinasiyalar işlədir. O öz səadətini hər cəhətdən ləyaqətli hesab etdiyi Hümmətlə də qura bilmir. Nuriyyənin özündən on səkkiz yaş böyük bir mühəndisə ərə getməsi, olsun ki, romanda bir qədər qəribə görünsün. Ancaq İ.Əfəndiyevin obrazları həmişə qeyri-adi sevgiləri, qərarları ilə fərqlənir. Mühəndisə ərə getməyində bir hadisə ona qərar verməkdə yardımçı olur. Rayona qastrola gəlmiş Dövlət Dram Teatrının aktyorlarından Gültəkin rolunu aparan aktrisa xəstələndiyindən, o rolu Nuriyyə ifa edir. Kənddə işlərini yaxşı qurmağa, burada böyük hörməti olmasına baxmayaraq, səadətini şəhərdə tapır. Nuriyyənin Gültəkin rolunu ifa etməsi də rəmzi məna daşıyır. Bu, o demək idi ki, yazıçı Nuriyyəni bir xarakter kimi Gültəkinin davamçısı hesab edir. Nuriyyə də Gültəkin kimi yenilikçidir, öz düşüncəsi var, təkbaşına qərar verməyi bacarır.

İ.Əfəndiyevin “Körpüsalanlar” (1960) romanında da eyni tendensiya davam etdirilir; yəni əsərdəki obrazlar sosial mənşəyinə görə təsvir edilmir. Burada ideoloji obrazlardan da danışmaq yersizdir. Romanda dörd nəfərlik briqadanın əmək prosesi təsvir edilsə də, bu, zahiri əlamətlərdir, həqiqətdə yazıçı cəmiyyətdə mənəvi problemi və yeni münasibətlər sistemini təsvir edir. Romanın qəhrəmanı on səkkiz yaşlı Səriyyə daha çox Nuriyyəni xatırladır. O da gəncdir, Adillə yenicə ailə həyatı qurmuşdur, təcrübəsiz olduğu kimi, həyat, dünya haqqında təsəvvürləri də aydın deyil. Onun əvvəlki həyatı ilə indiki həyatı arasında da xeyli fərqlər vardır. Adillə evləndikdən sonra kasıblığın daşını atmışdır, ehtiyacın nə olduğunu bilmir: şəhərin mərkəzində üçotaqlı evi var. Adilin onunla sevərək və valideynlərinin istəyinə uyğun olmayaraq ev-

lənməsi gələcək üçün çox şey vəd edir. Adilin cəmiyyətdə tanınması, davranışları da Səriyyəni tamamilə qane edirdi. İlk baxışdan hər şey yaxşı gedirdi. Lakin bütün bunlar əsərin konflikti üçün zəif bir materialdır. Ortada sinfi münasibətlər də olmadığından yazıçı təbii konfliktə əl atır. Hər bir insan kimi, Səriyyə də xoşbəxtlik haqqında düşünür. "İnsan xoşbəxtlik üşün yaranmışdır" ideyasını hər ikisi də təsdiq edir. Ancaq xoşbəxtliyi hərə bir cür başa düşür. Beləliklə, yazıçı "xoşbəxtlik haradadır və nədədir" mənəvi dilemmasını konfliktin mərkəzinə qoyur. Səriyyənin düşüncəsində xoşbəxtlik tam olaraq formalaşmasa da, Adil üçün hər şey məlumdur; nəyin bahasına olursa-olsun, vəzifə pillələrində irəliləmək. Bu, artıq mənəvi problemdir. Maraqlıdır ki, yazıçının obrazları inşaatçı, mühəndis, rəssam, artist, memar və başqa peşə sahibləri olmasına baxmayaraq, hadisələrin inkişafı həmişə mənəvi-psixoloji aspektdə gedir. Səriyyə ilə Adilin dünyagörüşündə olan fərqliliklər onların ayrılmasına səbəb olur. Səriyyənin qənaəti əslində onların hər ikisinin qənaəti kimi səslənir: "Bizdən hər birimiz gələcəyi ayrı cür görürük. Mən hiss edirəm ki, biz heç bir zaman gələcəyə eyni gözlə baxa bilməyəcəyik" [2, s.641]. Əslində onların birləşən nöqtəsi məhz burada baş verir; hər ikisi daha belə yaşamağın mümkün olmayacağını anlayırlar.

Bu problemin təsvirində obrazlar mənfi-müsbət qütblərə belə bölünmür. Çünki onların hər birinin həyat və xoşbəxtlik haqqında öz qənaətləri vardır. Bu cəhətdən romanın konfliktində də mənəviyyat məsələsi qoyulur. Burada mövzu olsun ki, ənənəvi olsun, yəni hadisələr istehsalat prosesində baş verir. Lakin istehsalatın insan mövzusunu, onun xoşbəxtlik və harmoniya axtarışlarını sıxışdırması, kənarlaşdırması prosesi burada baş vermir. Yazıçı burada insan problemini, cəmiyyətdə mənəvi təkamül məsələsini qoyur ki, məhz bu mövzu bütün dövrlərdə əsərin əsasını təşkil etmişdir. Əslində romanda həm Adildə, həm də Səriyyədə müsbət cəhətlərlə yanaşı, mənfi cəhətləri də görmək mümkündür. Tədqiqatçı Yaqub İsmayılov Adilin müsbət və mənfi cəhətləri haqqında yazır: "Bütün nöqsanlarına baxmayaraq, Adildə müsbət cəhətlər də yox deyildir. Bəs bir qadın kimi, nəcib və xeyirxah bir insan kimi Səriyyə ərinin nöqsanlarından təmizlənməsi üçün hansı tədbirə əl atır, nə kimi zəruri köməklik göstərir? Axı sevgi elə böyük mənəvi qüvvədir ki, ən qüsurlu adamı da onun vasitəsilə islah edib düzəltmək mümkündür" [5, s.60].

İ.Əfəndiyevin "Dağlar arxasında üç dost" (1963) romanında obraz axtarışları davam edir; əvvəlki əsərlərindəki Nuriyyə, Səriyyə obrazlarına daha bir qadın obrazı – Səlimə əlavə edilir. Bu obrazlar, demək olar eyni dövrün insanlarıdır və xaraktercə də bir-birinə yaxındırlar. Burada da yazıçı cəmiyyətdəki mənəviyyat və əxlaq problemlərini ayrı-ayrı obrazlar kontekstində təsvir etməyə üstünlük verir. Y.Qarayev "Nəsrimizin müsbət qadın qəhrəmanını səciyyələndirən bir ümumi cəhət vardır; onların əksəriyyəti adi zəhmət adamlarıdır" [6, s.161], – dedikdə heç də onların sosial statusunu nəzərdə tutmurdu. Onların hər birinin mənəvi-intellektual səviyyəsi vardı və ictimai funksionallıq daşıyırdılar. Bu mənada "Dağlar arxasında üç dost" romanını yeni obraz bölgüsündə yazıçı mövqeyinin möhkəmlənməsi kimi də başa düşmək olar. İ.Əfəndiyevin bu romanları ilə artıq nəsrimizdə yeni bir tendensiya formalaşmağa başlayır; hadisələr kolxozdan, əməkçi insanların həyatından bəhs etsə də, konflikin mərkəzində mənəvi-əxlaqi, psixoloji problemlər dayanırdı. Yazıçı bu romanda şüurlarda, düşüncədə və mənəviyyatda yaşayan, kök salan ətalət problemini qoyur. İ.Əfəndiyevin bu romanlarında hadisələrin necə təsvir olunmasından asılı olmayaraq, yeni obraz bölgüsü özünü göstərdi. Nədənsə, ədəbi tənqid bunu müsbət qəhrəman kontekstində qiymətləndirməyə üstünlük verdi. Əslində isə yazıçı ictimai münasibətlərdən mənəvi-əxlaqi məsələlərin təsvirinə yön almış, yeni qəhrəmanlar ortaya çıxarmışdır.

**İ.Əfəndiyevin romanlarında tarixi keçmişin əksi.** İ.Əfəndiyevin yaradıcılığına nəzər salarkən qəribə bir trayektoriyanın şahidi oluruq; 40-50-ci illərdə yazıçı əsərlərini müasir həyatdan yazdığına görə, ideoloji obrazlara meyil etmədi. Əvvəlki üç romanda bunu aydın şəkildə gördük. Sonrakı illərdə isə yazıçı "Geriyə baxma, qoca" (1980), "Üçatılan" (1981) romanları ilə yaxın tarixi keçmişə qayıdaraq uşaqlıq illərini təsvir edir. Yazıçının uşaqlıq illəri isə cümhuriyyət, kollektivləşmə, siyasi repressiya illə-

rinə düşür. Necə deyərlər, ömrünün kamillik və ahıllıq mərhələsində ziddiyyətli bir dövrü təsvir etmək ehtiyacının yaranması təsadüfi deyildi. Bu dövr ədəbiyyatımızda birtərəfli şəkildə təsvir olunmuş, obrazlar sosial mənşəyinə görə göstərilmişdi. İndi isə kimin kim olduğunu, hadisələri, obrazları yenidən təsvir etmənin zamanı gəlmişdir. Həmin dövrün elə hadisələri baş vermişdir ki, onlar vaxtilə tariximizdə və bədii düşüncəmizdə fərqli və canlı kontekstdə göstərilmişdir. Yazıçı isə tarixi, milli mənliyimizin əsas səhifəsi olan bu dövrə yenidən qayıtmağa ehtiyac hiss edir. "Geriyə baxma, qoca" romanında qəhrəmanı Muradın dediyi kimi: "Hətta indi, yəni yaşlı vaxtımda dönüb keçmişə baxmaq istəyəndə, elə bil ki, içəridən bir səs təşvişlə mənə deyir: "Geriyə baxma, qoca!". Lakin mən baxmaq istəyirəm. Mən bu keçmişin çox əzablı, çox kədərli olduğunu bilirəm, ancaq yenə də ona təkrar-təkrar tamaşa etmək, nəyi isə anlamaq istəyirəm" [3, s.60].

İ.Əfəndiyev Muradın gözü ilə 20-30-cu illərdə baş verən prosesləri təsvir edir, lakin onun heç bir obrazı qarşı-qarşıya duran ideoloji obrazlar deyil. Heç burada mənfi obrazlar da yoxdur, yəni bu ailənin faciəsinə səbəb olan tutaq ki, "bolşevik", "satqın", "ailəyə psilik edən" kimi obrazlar görünmür, sadəcə, bir nəslin taleyi təsvir edilir. Bütün bunlar Muradın qocaldıqdan sonra arxaya baxması, dönüb keçmişi xatırlaması təəssüratı ilə verilir. Əgər yazıçı 30-cu illərdə yazılmış digər romanlar kimi, burada konfliktin mərkəzinə iki ictimai qüvvəni qoymuş olsaydı, bu zaman obrazları da qarşı-qarşıya qoymuş olardı. Bu isə həm yazıçı yaradıcılığında, həm də bədii nəsrimizdə tamamilə yeni bir təmayül idi. Bu təmayül dünya ədəbiyyatında da artıq formalaşmışdı. Təsadüfi deyil ki, tənqidçi Aydın Məmmədov bu əsəri Azərbaycan ədəbiyyatının hər hansı bir ənənəsi ilə bağlamağı düzgün hesab etmir və dünya ədəbiyyatında gedən proseslə bağlayır: "Məsələn, Mahmudla Xanımı öldürən Qızyetərin sonrakı taleyinin böyük ustalıqla, özü də əsərin realist dəqiqliyinə, bədii inandırıcılığına heç bir xələl gətirmədən mifoloji planda verilməsi yadımıza Qabriel Qarsia Markesin "Yüz il tənhalıq" romanındakı Melkiadesin qeyb olması və yenidən əsərə qayıtmasını, eləcə də Nodar Dumbadze və Ç.Aytmatovun əsərlərindəki mifoloji keçidləri salır" [7, s.4].

İ.Əfəndiyevin eyni dövrü əks etdirən "Üçatılan" romanında isə fərqli vəziyyətlə qarşılaşırıq. Burada da hadisələr uşağın dili ilə təsvir edilsə də, romanın konfliktinə sovet hakimiyyətinin ilk illərində baş verən hadisələr qoyulur. Romanda Azərbaycanda sovet hakimiyyətinin qurulmasından kollektivləşməyə qədərki dövr təsvir olunur. Tərəkəmələrin həyatına inqilabın necə daxil olması, onların inqilaba münasibəti, banditizmə qarşı mübarizə kimi hadisələr Ərşad, Sərvinaz, Nuru, Eyvaz, Şahmar kimi obrazların üzərində göstərilir. Konfliktin mərkəzində isə Ərşad obrazı durur. Ərşad gəncdir, çobandır, kolxozlaşmada yaxından iştirak edir. Lakin milis Veysəllə münasibətləri konflikti də müəyyənləşdirir. Yazıçı dövrə məxsus olan bir çox hadisələri də reallıqla təsvir edir. Məsələn, dayısı qızı Sərvinazı ona yox, Bakıda oxuyan Nuruya verməyə çalışır. Sərvinaz Ərşadın dayısı qızı idi və onu sevirdi, lakin tamahkar dayısı onu Kürdobanın nüfuzlu və varlı adamlarından sayılan Hacı Tanrıverdinin ailəsinə vermək istəyirdi. Yazıçı Ərşadı həm də öz məhəbbəti uğrunda çarpışan, mərd, zirək, qorxmaz bir gənc kimi təqdim edir ki, bu da həm romanın konfliktinə, həm də obraza yeni çalarlar əlavə edir.

## Nəticə / *Conclusion*

İlyas Əfəndiyev "Üçatılan" romanında dövrün hadisələrini real gerçəkliyə uyğun olaraq təsvir edir, obrazları sxematikləşdirmir. Xüsusilə obrazların təqdimində qatılaşdırmaya yol vermir, sinfi mübarizə aspektindən təsvir etmir, daha çox kənd, el-oba, ailə-məişət konfliktindən çıxış edir. İ.Əfəndiyevin 60-70-ci illərdəki yaradıcılığı aydın şəkildə təsdiq edir ki, nəsrdə bir yeniləşmə prosesi gedir. Bu proses yalnız mövzuya yanaşmada, təsvir vasitələrinin orijinallığında, hadisələrin gerçəkliyə uyğun göstərilməsində deyil, həm də obrazların ideolojidən kənar təsvirindədir. Sonuncu faktor əsərin uzunömürlüyünü şərtləndirən amillərdəndir. Yəni

dövr, zaman keçdikdən sonra ideoloji olmayan obrazlar köhnəlmir, olduğu kimi qalır. İdeoloji obrazların ömrü isə ideologiyanın ömrü qədər olur, cəmiyyət inkişaf etdikcə, ideoloji obraz köhnəlir və öz funksionallığını itirir.

**Ədəbiyyat / *References***


1. Ağayev, Ə. Kənddən məktublar. – "Ədəbiyyat qəzeti", 1940.
2. Əfəndiyev, İ. Seçilmiş əsərləri. 4 cilddə, III cild. – Bakı: Təhsil, 2014.
3. Əfəndiyev, İ. Seçilmiş əsərləri. 4 cilddə, IV cild. – Bakı: Təhsil, 2014.
4. Hüseynov, A. Nəsr və zaman. – Bakı: Yazıçı, 1980.
5. İsmayılov, Y. İlyas Əfəndiyevin yaradıcılığı. – Bakı: Elm, 1991.
6. Qarayev, Y. Poeziya və nəsr. – Bakı: Yazıçı, 1979.
7. Məmmədov, A. Prinsipiallıq və xeyirxahlıqla. – "Ədəbiyyat və incəsənət", 1981, 10 aprel.
8. Həbibbəyli, İ. Ədəbi şəxsiyyət və zaman. Bakı: Elm və təhsil, 2019.


## ОТРАЖЕНИЕ НАЦИОНАЛЬНОГО ДУХА В ТВОРЧЕСТВЕ ИЛЬЯСА ЭФЭНДИЕВА


**Нурана Асадуллаева**
Доктор философии по филологии
E-mail: x_nura_x@list.ru



**Резюме.** В контексте общественно-политических процессов, происходивших в Азербайджане в конце 1950-х – начале 1960-х годов, литература, поэзия, проза, и драматургия вступают в новый этап. Этот этап отличался не только обновлением и изменением идеологических взглядов на события и факты, но и изменениями в поведении героев и их отношением к реальности. Как отмечалось в учебниках по истории, "социализм одержал полную и безоговорочную победу в обществе". При таком раскладе было необходимо менять тематику и проблематику литературных произведений. Тенденция прошлых лет выбирать и оценивать героев произведений по их классовой принадлежности становится неактуальной. После окончания Второй мировой войны проходит около 15 лет и процессы, происходящие в мире, сделали необходимым интеграцию литературы и культуры разных народов. В художественных произведениях создаются не только образы врагов советской идеологии, как это было принято в 1920–1930-е годы, а также ряд новых образов, освещаются духовно-нравственные вопросы. В этой связи важное значение имеет творчество выдающегося писателя, народного писателя Ильяса Эфендиева. В статье на основе произведений И.Эфендиева "Ива над арыком", "Кизиловый мост", "Не оглядывайся назад, старик", "Трехстволка" исследуются проблемы отражения национального духа в литературе.



**Ключевые слова:** 1950-1960-е гг., азербайджанская литература, Ильяс Эфендиев, национальный дух, позиция писателя